Konrad
Adenauer
Stiftung

# RIFAH, SOSIAL BƏRABƏRLIK VƏ DAVAMLI IQTISADIYYAT ÜÇÜN ƏSAS ISTIQAMƏTLƏR

# İÇINDƏKILƏR

**3** | PREAMBULA

**3** | ƏSAS ISTIQAMƏTLƏR

1. Hüquqi dövlətçiliyə xas olan çərçivə sistemi ........ 3
2. Mülkiyyət sistemi və məşğulluq ........ 3
3. Rəqabət əsas prinsip kimi........ 3
4. Məsuliyyət prinsipinin tətbiqi........ 4
5. İqtisadi çərçivə şərtlərinin sabitliyi ........ 4
6. İctimai əmtəənin dövlət tərəfindən dəstəklənməsi........ 4
7. Həmrəylik və sosial təminat........ 4
8. Stimullaşdırma........ 4
9. Səbat........ 4
10. Açıq bazar siyasəti........ 4

**4** | SOSIAL VƏ BAZAR IQTISADIYYATI YÖNÜMLÜ KÜRƏSƏL IQTISADİ SİSTEMİN UĞUR ƏLDƏ ETMƏSİNİN ŞƏRTLƏRİ

Kürəsəl maliyyə və iqtisadi böhranın öhdəsindən gəlmək üçün beynəlxalq qaydalar tələb olunur. Sosial bazar iqtisadiyyatının sistem modeli belə bir istiqamət çərçivəsi təklif edir. Bu milli zəmində sınanmışdır. Avropa İttifaqı dövlətləri Lissabon Müqaviləsində "rəqabətcil sosial bazar iqtisadiyyatı"na təkan verməkdə öhdəlidirlər. Avropa İttifaqının qurumları, xüsusən də Avropa Parlamenti ötən aylarda bu məsələni diqqətə aldıqlarını sübut etdi. Lakin bu prinsiplər beynəxlaq əhəmiyyət də kəsb etməlidir. Avropa İttifaqındakı aparıcı siyasət və iqtisadiyyat təmsilçiləri buna aid məqamları aşağıdakı əsas istiqamətlərlə müəyyən etmişlər.

## PREAMBULA

Getdikcə artan iqtisadi və siyasi çəkişmə dünyanın çox ölkələrində təhsil imkanlarını yaxşılaşdıran, sosial infrastrukturu möhkəmlədən və yoxsulluğu azaldan tərəqqiyə və rəqabətə gətirib çıxarıb. Buna rəğmən sülh, azadlıq və ədalət hələ də təhlükə altındadır. Kürəsəl rifahın qeyri-bərabər bölüşdürülməsi də artan siyasi və sosial gərginliklər üçün məsuliyyət daşıyır. Yalnız maliyyə bazarları beynəlxalq qaydalarla hazırkı maliyyə və iqtisadi böhranın öhdəsindən gələ bilər. Bu tərəflərin davamlı iqtisadiyyatlarının vacibliyini qəbul etməsini tələb edir. Bizim rifahı, sosial bərabərliyi və davamlı iqtisadiyyatı ümumi prinsiplər və dəyərlər əsasında həll edən razılığa ehtiyacımız var. Bu zaman hətta böhran dövrlərində belə kürəsəlləşmənin müsbət təsirləri milli yaxud regional himayəçilik vasitəsilə təhlükə qarşısında qoyulmamalıdır. Ümumi rifah istiqaməti, demokratik legitimlik və insan ləyaqətinin toxunulmazlığı mədəni və ictimai xüsusiyyətləri nəzərə almaq şərtilə üzərində belə razılaşmanın əsaslandığı fundamentdir.

## ƏSAS ISTIQAMƏTLƏR

Həmrəylik və yekdillik əsas prinsiplərdir. Həmrəylik ona xidmət edir ki, bazar iqtisadiyatı həmişə ümimi rifaha istiqamətlənərək özünü doğrultsun. Yekdillik isə fərdi məsuliyyət və fərdi təşəbbüs üçün mühit yaradır və buna zəmanət verir.

### 1. Hüquqi dövlətçiliyə xas olan çərçivə nizamı

Fəaliyyət qabiliyyətinə malik, etibarlı və demokratik baxımdan legitimləşmiş hüquq sistemi təsirli və möhkəm iqtisadi fəaliyyətin təməlidir. Bu, işlək iqtisadiyyat, səmərəli və vətəndaşa yaxın dövlət idarəçiliyi, habelə yaxşı iqtidar hökumətinin prinsiplərinin nəzərə alınması üçün şərt qoyur. Nizamlayıcı elementlər və daimi yoxlama qaydalara riayətə nəzarət edir və qaydalara zidd olan davranışı cəzalandırır. Lakin bu məqsəd deyil. Nizamlama doğrudur və rəqabətcil iqtisadiyyatda stimullaşdırmanı formalaşdırmaq üçün hesablanıb ki, rəqabətdə mərkəzdən kənar fəaliyyət ictimai-siyasi baxımdan faydalı nəticələrə gəlib çıxsın.

### 2. Mülkiyyət nizamı və məşğulluq

Səmərəli və möhkəm qurulmuş iqtisadi struktur mala sahibolma hüquqlarını şəxsi müəssisə və fərdi idarələrə verən şəxsi mülkiyyət sisteminə əsaslanmalıdır. Şəxsi mülkiyyət işdən gəlir əldə etmə üçün qərarverici canlandırma yaradır və innovativ sahibkarlığın əsasıdır. Şəxsi mülkiyyətə əsaslanan yalnız bir iqtisadi sistem davamlı məşğulluğa təminat verir. Bunun əsasında fərdi məsuliyyət və fərdi təşəbbüslər yarana bilər ki, bunlar olmadan fərdi potensial, təhsil, innovasiya, tərəqqi və rifahla doğru davranmağı təsəvvür etmək çətindir. Şəxsi mülkiyyət o iqtisadi sistemi xarakterizə edir ki, orada kiçik və orta sahibkarlar şəxsi mülkiyyəti ilə öz qeydinə qalmaqda cavabdehdir. Onun istifadəsi eyni zamanda ümumi rifaha xidmət etməlidir. Bu məqsədəuyğun, davamlı sahibkar fəaliyyətinə zəmanət verir və bir tərəfli, o cümlədən qısa müddətdə gəlir əldə etmə istəyindən qoruyur.

### 3. Rəqabət əsas prinsip kimi

Qiymətlərin sərbəst şəkildə formalaşmasına əsaslanan ümumdünya rəqabət sistemi həcm etibarilə az olan vəsaitlərin optimal surətdə bölgüsü və tətbiq edilməsini təmin edir. Fəaliyyət qabiliyyətinə malik olan rəqabət mühiti davamlı iqtisadi fəaliyyətin mühərrikidir. O səmərəlilik və tərəqqini dəstəkliyir, məsuliyyətli iş tərzini gücləndirir, bazara bir tərəfli qaydada təsir edə biləcək qüvvənin meydana çıxmasının qarşısını alır. İstənilən rəqabət sistemi həm milli, həm də beynəmiləl çərçivədə açıq bazarların, onlara təsir edə bilən qüvvələr və bu qüvvələrin toplamına dövlət və dövlətlər birliyi tərəfindən nəzarətin mövcud olmasını tələb edir. Rəqabət iş qabiliyyəti prinsipi və şanslar bərabərliyinə əsaslanır.

### 4. Məsuliyyət prinsipinin tətbiqi

Rəqabət azadlığı iş fəaliyyətində rəqabətin hər bir sahibkarın özü tərəfindən tənzimləməsi üçün məsuliyyət prinsipinin tətbiqini labüdləşdirir. Uğur mənzərəsi rəqabəti daha da stimullaşdırır. İtki zamanı mövqei qoruyub saxlama eyni zamanda məsuliyyətsiz və risk ehtimalı yüksək olan fəaliyyəti məhdudlaşdırır.

### 5. İqtisadi çərçivə şərtlərinin sabitliyi

Bazar iqtisadiyyatı sisteminə uzun müddətə hesablanmış iqtisadi siyasət və böyük imkanları olan makroiqtisadi sabitlik lazımdır. Bu, xüsusən milli və beynəlmiləl maliyyə bazarlarına şamil edilir. Sərmayələr və uzun müddətli istehlak qərarları üçün sabit çərçivə sistemindəki etibar tələb olunur. Bura həmçinin himayədarlıq xarakterli tədbirlərdən, habelə ancaq qısa müddətli milli iqtisadiyyat və tərəqqi hədəflərinə yönələn pul siyasətindən imtina da aiddir.

### 6. İctimai əmtəənin dövlət tərəfindən dəstəklənməsi

Bazar ictimai əmtəəni istifadəyə verə bilmirsə, yaxud bu qənaətbəxş deyilsə, onda bazar iqtisadiyyatı sistemində dövlət bu əmtəənin hazırlanmasına zəmanət verməlidir. Yüksək fəaliyyət qabiliyyətinə malik infrastrukturlar, fundamental təhsil imkanları və səhiyyə sisteminin əhatəli təhcizatı dövlətin formalaşdırması gərəkən sahələrdir. Sosial təlabatlar zamanı dövlətə xüsusi ehtiyac var. Lakin dövlətin müdaxiləsi məhdud şəkildə olmalıdır.

### 7. Həmrəylik və sosial təminat

İqtisadi tərəqqi yoxsulluqa mübarizəyə təkan verir. Bazar iqtisadiyyatı gəlirlər arasındakı fərqin əmələ gəlməsini və əhalinin hissələrinin ziyana uğramasını dəff edə bilməz. Ona görə də sosial rifahı təmin etmək və iqtisadi, ictimai inkişaf sahəsində ictimai nəzarətin olmasına imkan yaratmaq üçün bazar iqtisadiyyatında güclü təsir imkanına malik və bazar şərtlərinə münasib olan sosial təminat sistemi, regional tarazlığı tənzimləyən mexanizmlər, habelə yüksək fəaliyyətə malik vergi sistemləri olmalıdır.

### 8. Stimullaşdırma

Bazar iqtisadiyyatı sistemində dövlət işlərinin maliyyələşdirilməsi üçün stimullaşdırıcı vergi sistemi olmalıdır. Bu vergilər elə olmamalıdır ki, onlar fəaliyyət stimuluna maneçilik törətsin yaxud hər hansı bir yanlışa gətirib çıxarsın.

### 9. Səbat

Hər bir iqtisadi sistem özünü uzun müddətli nəticələrin əldə edilməsinə kökləməlidir. Səbat iqtisadi məntiqə söykənən, sosial və fiskal baxımından ən mühüm uğur meyarıdır və nəsillərin ədalətliliyinin təcəssümüdür. Cavabdehliyə və məsuliyyətə söykənən hüquq sistemi də səbata təkan verir. Xüsusən də fəal şəkildə yürüdülən iqlim siyasəti gələcək nəsillərin sağlam yaşamasının təmin edilməsi üçün iqtisadi və mənəvi öhdəlikdir.

### 10. Açıq bazar siyasəti

Böhran ərəfəsində tək mübarizə aparmaq çıxış yolu deyil, əksinə bu cəhdlər iqtisadi böhranın dünyada yaratmış olduğu təsirlərini daha pisləşdirə bilər. Vacib olan açıq bazarları idarə edən siyasət, habelə dürüst oyun qaydalarına riayət etməkdir. Himayədarlığa və iqtisadi millətçiliyə qarşı önəmli beynəxalq qurumlar isə gücləndirilməlidir.

## SOSIAL VƏ BAZAR IQTISADIYYATI YÖNÜMLÜ KÜRƏSƏL IQTISADI SISTEMIN UĞUR ƏLDƏ ETMƏSININ ŞƏRTLƏRI

Açıq və kürəsəl iqtisadiyyat üçün beynəlxalq çərçivə lazımdır. Özünü milli və Avropa səviyyəsində sosial və bazar iqtisadiyyatı yönümlü iqtisadi və dəyərlər sistemi çərçivəsində qoruyub saxlamış prinsip və qaydalar eyni zamanda beynəlxalq aləmdə də tətbiq olunmalıdır. Sözügedən prinsiplər hər kəsə azadlıq və məsuliyyət verir. Bunlar xüsusən maliyyə bazarlarında normallaşdırılmalı və ümumdünya ticarət sistemində gücləndirilməlidir.

Bunun üçün legitimliyin genişlənməsi, beynəlxalq qurumların yüksək fəaliyyəti və sıx əməkdaşlığı habelə interaktiv əməkdaşlıq forumlarının təşkili lazımdır. Etibarlı hüquq sistemi və yekdil xarakterli demokratik sistem bunun fundamentidir. Dövlətlərarası siyasi rəqabət və siyasi iştirak beynəlxalq ictimai və iqtisadi sistemin iqtisadi baxımdan inkişafına və sabitliyinə təkan verir. Zəruri məlumatların azad mətbuat və birliklər tərəfindən çatdırmasına da yalnız bu cür sistemlərdə imkan verilir. Milli və beynəlxalq çərçivədə siyasi, iqtisadi və ictimai aktorların maraqların tarazlığına dair razılaşması və konsensusu "hamı üçün rifah"ın əsas şərtidir.

8 iyul 2009-cu il



Prof. Dr. Hans-Qert Pöttering
Avropa Parlamentinin Sədri



Prof. Dr. Bernhard Fogel
Sabiq Baş Nazir
Konrad Adenauer Fondunun Sədri



Dr. Vilfriid Martens
Avropa Xalq Partiyasının
(AXP) sədri



Yozef Daul
Avropa Parlamentidə AXP fraksiyasının
sədri



Prof. Dr. Cees P. Veerman
Wetenschappelijk Instituut voor het
CDA-nın sədri